

# BAYAT

№ 41 (622)





*Nazim HÜSEYNLİ*

# TURAN

*Sizlərsiniz ey qövmi macar, bizlərə ixvan,*
*Əcdadımızın müştərək mənşəyi Turan!*
*Bir dindəyiz, hamımız haqpərəstan,*
*Mümkünmü ayırsın bizi İncil ilə Quran?* [1]

*Əli bəy Hüseynzadə*

*Vatan ne Türkiyedir, ne Türkistan,*
*Vatan, büyük və müebbet bir ülkedir: Turan.*

*Ziya Gökalp*

***

Yaranışın əvvəlidir, lap önüdür,
Hun-Türk köklü insanların məskənidir,
Yer üzündə kültürün ilk vətənidir,
Keçmişimiz, sabahımız ulu Turan.
Sərvətləri hər eldən çox yerlər orda,
İgidliyi dildə dastan ərlər orda,
Xainləri diz çökdürən nərlər orda
Keçmişimiz, sabahımız ulu Turan.

Neçə-neçə ilkə imza atdı türklər,
Neçə xalqın imdadına çatdı türklər,
Ədaləti, haqqı uca tutdu türklər,
Keçmişimiz, sabahımız ulu Turan.

Yaradılış - bu günümüz zamanında,
Türk elləri tarix yazıb hər yanında
Hər çağ, hər an ulu tanrı amanında,
Keçmişimiz, sabahımız ulu Turan.

Atilladır boz kırlarda atın çapan,
Yüz minlərdir atın qovub ona çatan,
Ürəklərdə Şərqdən Qərbə ucsuz vətən,
Keçmişimiz, sabahımız ulu Turan.

Çoxdu sayı[2]: Hunlar, Göytürk, Qaraxanlı,
Qəznəvilər, Uyğur, Orda, həm də Osmanlı,
Teymur, Moğol, Səfəvilər,.. adlı-sanlı,
Keçmişimiz, sabahımız ulu Turan.

"Şahnamə"ni yazan şair türk düşməni[3],
Əlindəki qələm bir ox, hədəf səni-
Türk seçib. Hədəf, düşmən-Turan yəni...
Keçmişimiz, sabahımız ulu Turan.

Sultan Mahmud, farslar türkdən çox idimi,
Dövlət türkün, farsa uyğun çağ idimi,
Doğma dilin, öz şairin yox idimi?
Keçmişimiz, sabahımız ulu Turan.

Dörd qitənin tarix yazmış övladları,
Yurddan qovdu hücum edən çox yadları,
Unudulmaz, yaşayar hər çağ adları,
Keçmişimiz, sabahımız ulu Turan.

... Uzaq düşdü bir-birindən ellərimiz,
Düşmən gördü yurdlarımız, çöllərimiz,
Əsarətdə keçdi neçə illərimiz,
Keçmişimiz, sabahımız ulu Turan.

Amerkadır, Avropadır, Rusiyadır,
Çin dövləti-hərəsi bir imperyadır...
Bizim üçün qurtuluşdur, bir ziyadır
Keçmişimiz, sabahımız ulu Turan.

Hunqariya-turançılıq beşiyidir,
Qardaşlarla bir olmağın aşiqidir,
Qərbdə Turan sipəridir, keşiyidir
Keçmişimiz, sabahımız ulu Turan.

Ruhlarının nəbzi də bu eşqlə vuran,
Akçuralı, Qaspıralı, Əli Turan[4],
Ziya Gökalp dedi, deyər hər an:
Keçmişimiz, sabahımız ulu Turan.

Şəhid ruhlar Turan deyib çığırmada,
Qövmi-Macar qardaşları çağırmada,
Doğu sarı "Birlik" deyib bağırmada,
Keçmişimiz, sabahımız ulu Turan.

Turan adı könülləri dindiribdi,
Bir birliyin məşəlini yandırıbdı,
Neçə ölkə nümayəndə göndəribdi[5],
Keçmişimiz, sabahımız ulu Turan.

Ürəyin bir, Büro[6], Turan mayağıdır,
Şandor Lezak[7] qurultayın dayağıdır,
Qurultaylar gerçək Turan sorağıdır,
Keçmişimiz, sabahımız ulu Turan.

Qazaxıstan Turan[8] adlı şəhər tikir,
Kökü Hundan Çinə çatan ağac əkir,
Qurultaydır, türk elləri qolun çəkir,
Keçmişimiz, sabahımız ulu Turan.

Tarixlərin sükunəti yarılsın qoy,
Fövqəladə bir qurultay çağrılsın qoy,
Turan adlı dev bir birlik qurulsun qoy,
Keçmişimiz, sabahımız ulu Turan.

Öncə 7 bağımsız, hür türk dövləti,
Bir də Macar-Hunqariya səltənəti:
8 dövlət qərar versin möhkəm, qəti,
Keçmişimiz, sabahımız ulu Turan.

Hunqariya, Anadolu, Azərbaycan,
Kıbrıs eli, Qazaxıstan,.. olsun bir can
Əl uzatsın bu birliyə hər el, hər yan,
Keçmişimiz, sabahımız ulu Turan.
... Səmalardan sədalandı şərqi səsi,
Heyran etdi qulaq asan hər bir kəsi,
O mahnının budur çıxan nəticəsi:
Keçmişimiz, sabahımız ulu Turan.

"Özbek, türkmen, uyqur, tatar, azer bir boydur,
Karakalpak, kırqız, kazak bunlar bir soydur..."[9]
Qardaşların birləşməsi şölən, toydur,
Keçmişimiz, sabahımız ulu Turan.

Hun-Türk qövmü. Soyu, kökü, qanı birdir,
Yer üzündə dörd qitədə izi vardır,
Bir olmasa gələcəyi boran, qardır,
Keçmişimiz, sabahımız ulu Turan.

Tələbidir birlik bizim qanımızın,
Turan üçün qurban olan canımızın,
"Olum-ölüm" qarşısında günümüzün...
Keçmişimiz, sabahımız ulu Turan.

Hər bir xalqa var hörməti, hər an eşqi,
Fərq bilinməz Tövrat, İncil, Quran eşqi,
Ürəyində təki olsun Turan eşqi,
Keçmişimiz, sabahımız ulu Turan.

Kökü birdir, paytaxtı da bir olacaq,
Ordusu da, tac, taxtı da bir olacaq,
Hamıya dost, barışsevər yer olacaq,
Keçmişimiz, sabahımız ulu Turan.

Paytaxt dedim, Ankaradır onun adı,
Ürəyində Turan odu, türkün odu,
Buraxmayıb sınırına heç bir yadı,
Keçmişimiz, sabahımız ulu Turan.

Çində çoxlu pramida[10] tapılıbdır,
Türk elləri tərəfindən yapılıbdır,
Minlərlə il öncə... Dünya mat qalıbdır,
Keçmişimiz, sabahımız ulu Turan.

Mete, Çingiz, Teymur, Fateh, Cavad xanlar,..
Vətən üçün vuruşlara hazır canlar,
Bir amalçün tökülübdü axan qanlar:
Keçmişimiz, sabahımız ulu Turan.

Türkün türklə vuruşları olmayaydı,
Bu vuruşlar türkü zəif salmayaydı,
Bunu görən düşmən fürsət bulmayaydı...
Keçmişimiz, sabahımız ulu Turan.

Tək olsa da türk soyları cəsarətdə,
Uduzuruq ilk növbədə siyasətdə,
Neçə-neçə ellərimiz əsarətdə,
Keçmişimiz, sabahımız ulu Turan.

Əsarətdən manqurtlaşmaq qorxuludur,
Manqurtlaşan düşməninin bir quludur,
Öz kökünü qılınclayan yağı odur,
Keçmişimiz, sabahımız ulu Turan.

Hun-türk köklü xalqlar birlik diləyində,
Öncə birlik hər bir xalqın ürəyində!
Hayqırmalı bütün ellər gərəyində:
Keçmişimiz, sabahımız ulu Turan.

Yurdumuza gözün dikən-düşmən bizə,
Elimizə qılınc çəkən-düşmən bizə,
Qanımızı içən, tökən-düşmən bizə
Keçmişimiz, sabahımız ulu Turan.

Qalanları dost gözüylə görərik biz,
Əl uzadan hər kəsə əl verərik biz,
Sözümüzdə daim möhkəm durarıq biz,
Keçmişimiz, sabahımız ulu Turan.

Avropaya, rusa da dost, Çinə də dost,
Amerika, ya İsrail, yenə də dost,
Hər bir xalqa, hər bir ölkə, dinə də dost,
Keçmişimiz, sabahımız ulu Turan.

Oğuz xanın, Atillanın ruhu gülər,
Çingiz, Teymur, Fateh atın çapıb gələr,
Xiffətindən neçə-neçə düşmən ölər,
Keçmişimiz, sabahımız ulu Turan.

Kim istəsə ona meylin sala bilər,
Hər bir ölkə onunla bir ola bilər,
Bütün xalqlar ondan fayda ala bilər,
Keçmişimiz, sabahımız ulu Turan.

Sözü bütöv, qəlbi təmiz, gözü toxdur,
Heç bir xalqın torpağında gözü yoxdur,
Qonşulara ürəyində sayqı çoxdur,
Keçmişimiz, sabahımız ulu Turan.

Son zamanlar əlaqələr gəlişmədə,
Bir-birini aramada, buluşmada,
Həmişə ol sevinc-qəmi bölüşmədə...
Keçmişimiz, sabahımız ulu Turan.

Çalışqandır, səhralarda gül bitirər,
Hər kim dara düşsə özün tez yetirər,
Yer üzündən böhranları tez götürər,
Keçmişimiz, sabahımız ulu Turan.

Turan odlu məşəl olsun hər bir ürək,
Gücümüzü bu amala, eşqə verək,
Hamılıqla bir zindana vuraq gərək,
Keçmişimiz, sabahımız ulu Turan.

Çox tezliklə axan sular durulacaq,
Ulu Tanrı rizasıyla görüləcək:
Turan adlı birliyimiz qurulacaq, -
Keçmişimiz, sabahımız ulu Turan.

avqust-sentyabr, 2015

1.Əli bəy Hüseynzadə 1917-ci ildə Macarıstanda nəşr olunan "Turan" jurnalında verilən, bu ölkənin digər türk millətləri ilə Turan qardaşlığını müdafiə edən 5 şeirini ilk macar turançılarından Arminius Vamberiyə ithaf etmişdir.
2. Tarixdə Türk imperatorluq, dövlət və bəyliklərinin sayı 100-dən çoxdur.
3. Fars şairi Firdovsiyə işarədir.
4.Əli bəy Hüseynzadə nəzərdə tutulur.
5.Macarıstanda iki ildən bir keçirilən Turan qurultaylarına işarədir.
6.Bu qurultayın ideya müəllifi və təşkilatçısı Macar Turan Fondunun qurucusu, antropoloq Anrdaş Birodur.
7.Vitse-spiker Şandor Lezak Macarıstanda keçirilən Turan qurultaylarının himayəçisi kimi tanınır.
8.Qazaxıstanda Turan adlı şəhərin tikintisinə başlanılmış və orada qurultay keçirilmişdir.
9.Bu misralar "Anayurt marşı" adlı məşhur şərqidən götürülmüşdür.
10.Çində tapılmış Misir piramidalarından daha əzəmətli və çox-çox əvvəllərə aid olan "Ağ piramidalar" və ya "Türk piramidaları" deyilən tikililərə işarədir.